1_Layout 1 14.06.2023 9:53 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**

DİN DAXİLİ QOŞUNLAR

# ƏSGƏR

№ 12 (651)

15 iyun 2023-cü il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# AZƏRBAYCANIN TALEYİNİ DƏYİŞƏN MİLLİ QURTULUŞ GÜNÜ



Xalqların və dövlətlərin taleyində əlamətdar təqvimlərin, tarixi günlərin, yeni reallıqlar və inkişaf qanunauyğunluqları yaradan ictimai-siyasi proseslərin olduqca böyük əhəmiyyəti var. Zaman keçdikcə həmin tarixi günlərin mahiyyəti, ölkənin və millətin taleyindəki əvəzsiz rolu yenidən araşdırılır, hər dəfə yeni-yeni həqiqətlər üzə çıxır, fenomenal liderlərin, tarixi yaradan şəxsiyyətlərin ən çətin zamanlarda misilsiz xidmətləri, qəbul etdikləri müdrik qərarların qüdrəti bir daha aydınlaşır. Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə bağlı olan 15 iyun tarixi də xalqımızın və dövlətimizin tarixində, habelə taleyində bu cür müstəsna əhəmiyyətə və rola malikdir.

1991-ci ildə xalqımız uzun illər arzusunda olduğu dövlət müstəqilliyini yenidən bərpa etsə də, təəssüf ki, qısa zaman kəsiyində müstəqilliyin itirilməsi sınağı ilə üz-üzə qaldı. Müstəqilliyin ilk günlərindən başlayaraq daxili çəkişmələrin, Azərbaycanın müstəqil dövlət kimi bölgədə inkişafını və rifahını istəməyən xarici qüvvələrin səyləri nəticəsində ölkədə miqyası ifadə olunmayacaq dərəcədə xaos və özbaşınalıq mühiti yarandı. Belə bir şəraitdə eyforiya dalğası ilə hakimiyyətə gələn AXC-Müsavat cütlüyünün bacarıqsızlığı, yanlış qərarları, naşı idarəçiliyi siyasi proseslərin, həmçinin bütün fəaliyyət sahələrində ölkənin idarə edilməsində, əslində isə idarə olunmamasında rəngləri daha da tündləşdirdi. Müstəqil Azərbaycan inkişaf və rifah əvəzinə, günügündən tənəzzülə uğradı, öz taleyinin sahibi ola bilməyən xalqımız vətəndaş qarşıdurmasına yuvarlandı.

1992-1993-cü illərdə hakimiyyətdə olan qüvvələr ölkə daxilində siyasi prosesləri tənzimləməyi bacarmır, respublikada sabitlik, əmin-amanlıq yaratmaq əvəzinə, səriştəsizlikləri ilə yaratdıqları böhranı daha da dərinləşdirirdilər. Eyni zamanda, xarici siyasətdə bir-birinin ardınca yol verilən kobud səhvlər ölkəmizin dünya dövlətləri ilə, xüsusilə qonşu ölkələrlə əlaqələrinə ciddi xələl gətirirdi.

Belə bir dözülməz şəraitdə xalqımızı və ölkəmizi bu acınacaqlı vəziyyətdən yalnız fenomenal şəxsiyyət – Ulu Öndər Heydər Əliyev çıxara bilərdi. Qədirbilən xalqımız yad təsirlərin, siyasi oyunların, xaos və özbaşınalığın yaratdığı ümidsizliyin girdabında boğulsa da, nəhayət, özündə güc taparaq müdrik qərar verməyi bacardı. Bu qərar dünyaya xilaskarlıq missiyası ilə gəlmiş Ümummilli Lider Heydər Əliyevin Naxçıvandan Bakıya – ölkənin siyasi mərkəzinə dəvət edilməsi idi. Məhz ölkənin, xalqımızın milli qurtuluşunu şərtləndirən bu tarixi qərarın əhəmiyyəti bu gün ərazi bütövlüyünü təmin etmiş qüdrətli Azərbaycanda daha parlaq, daha aydın, əzəmətli görsənir. Bu məqamda onu da xüsusi vurğulamaq lazımdır ki, Ulu Öndər hələ sovet hakimiyyəti illərindən başlayaraq bütün təqib və təzyiqlərə, yaradılan məhrumiyyətlərə baxmayaraq, müstəqilliyimizə, milli qurtuluşumuza gedən yolun təməl daşlarını qoyurdu. Bu gün əminliklə söyləyirik ki, ölkəmizin müstəqilliyə gedən yolu 1969-cu ildən – Ulu Öndər Heydər Əliyevin sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdən başlayıb. Məhz həmin dövrdən etibarən respublikamızın inkişafında tərəqqi meyilləri gücləndi, xalqımızda milli qürur, milli mənlik şüuru yenidən oyandı, insanların qəlbində müstəqillik duyğuları baş qaldırdı. Ümumiyyətlə, Ulu Öndər Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi 1969-1982-ci illər bütün sahələrdə Azərbaycanın quruculuq salnaməsinin parlaq dövrü kimi tarixə düşdü.

1993-cü ilin 9 iyununda qədirbilən xalqımızın səsinə, harayına səs verərək və eyni zamanda həyatını böyük təhlükələrə ataraq Bakıya dönən Heydər Əliyev mahiyyətcə, məzmunca yeni və daha parlaq bir tarixin yaradıcısı oldu. Bu dönüş, bu qayıdış bütün mənalarda milli qurtuluşumuz, milli nicatımız idi. Bu mənada Ulu Öndər Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildiyi 1993-cü il 15 iyun tarixinin xalqımız tərəfindən Milli Qurtuluş Günü adlandırılması qədirbilən xalqımızın müdrik rəhbərinə verdiyi tarixi qiymət, öz sabahını müəyyənləşdirmək baxımından verdiyi böyük tarixi qərardır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan tarixinin dönüş nöqtəsi adlandırdığı Qurtuluş Günü bu gün əldə etdiyimiz bütün uğurların təməli, məhək daşı oldu.

1997-ci ildən etibarən rəsmi olaraq dövlət bayramı kimi qeyd edilən bu tarix ilk növbədə XX əsrdə ikinci dəfə əldə etdiyimiz müstəqilliyimizin xilası kimi olduqca böyük əhəmiyyət daşıyır. Məhz bu parlaq tarixdən sonra Ulu Öndərin böyük səyləri nəticəsində dövlət müstəqilliyini itirmək təhlükəsindən xilas olan ölkəmiz ardıcıl rifah və tərəqqi yoluna qədəm qoydu. Ulu Öndərin rəhbərliyi ilə qısa zaman ərzində ölkədə aparılan siyasi-iqtisadi islahatlar, peşəkar ordu quruculuğu, bütün bunların fonunda yaradılmış əmin-amanlıq, sabitlik, rifah xalqımızın sabaha olan ümidlərini artırdı, onu müdrik və cəsarətli rəhbərinin ətrafında yumruq kimi birləşməyə sövq etdi.

Beləliklə, Ümummilli Lider Heydər Əliyev qurtuluş missiyasını xalqın hərtərəfli dəstəyi, müdrik rəhbərə olan sonsuz inamı və etibarı sayəsində uğurla gerçəkləşdirdi, xalqımızı, dövlətimizi ən böyük bəlalardan xilas etdi. Eyni zamanda, müdrik rəhbər bu missiyası ilə dövlətimizin rəmzinə çevrildi ki, bu da tarixdə nadir hallarda baş verir. Məhz bu əvəzsiz xidmətlərinə görə müasir Azərbaycanın dövlətçilik tarixi dedikdə, bütün həyatını Azərbaycan dövlətinin, xalqının inkişafına həsr etmiş unudulmaz liderimiz Heydər Əliyevi xatırlayırıq. Ulu Öndər Heydər Əliyev dünya tarixinin nadir şəxsiyyətlərindəndir ki, bu insanların zəngin irsi hər zaman araşdırılır, öyrənilir, ən yaxşı nümunələr kimi təbliğ olunur.

Azərbaycan dövlətini məhv olmaqdan xilas edən, onun hərtərəfli rifahına nail olan Ulu Öndər Heydər Əliyevin ən böyük arzusu 1980-ci illərin sonu, 1990-cı illərin əvvəllərində ölkəmizdə yaranmış özbaşınalıq şəraitində işğal olunmuş tarixi torpaqlarımızın azad edilməsi idi. Ümummilli Lider Heydər Əliyev ölkəyə rəhbərlik etdiyi 10 il ərzində hər an bu problemin ədalətli həllinə çalışmış, Qarabağla nəfəs almış, öz yurdlarından didərgin salınmış qaçqın və məcburi köçkünlərin qayğısına qalmışdır.

2003-cü ildə xalqın yüksək etimadını qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyev Ulu Öndərimizin xilaskarlıq, qurtuluş, tərəqqi və rifah missiyasını uğurla davam etdirdi, ölkəmizi daha da qüdrətləndirdi. Əsası Ulu Öndər tərəfindən qoyulan siyasi idarəçilik sistemi inkişaf etdirildi, balanslaşdırılmış siyasət yürüdən dövlətimiz dayanıqlı və davamlı rifaha nail oldu. Ölkəmiz dünya birliyi, inkişaf etmiş ölkələr tərəfindən etibarlı tərəfdaş kimi qəbul olundu.

Azərbaycanı günbəgün qüdrətləndirən Prezident İlham Əliyev 2020-ci ilin 27 sentyabrında başlayan və tarixi Zəfərlə bitən 44 günlük Vətən müharibəsi ilə layiqli davamçısı olduğu Ulu Öndərin ən böyük arzusunu gerçəkləşdirdi, tarixi bir missiyanı həyata keçirdi. Dahi lider Heydər Əliyevin 1993-cü ilin 15 iyununda başlatdığı milli qurtuluş savaşı Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi sayəsində Qarabağın işğaldan qurtulması ilə özünün zirvəsinə çatdı.

Qüdrətli dövlətimiz, qədirbilən xalqımız üçüncü ildir ki, xalqımızın taleyini dəyişmiş 15 İyun - Milli Qurtuluş Gününü daha yüksək əhval-ruhiyyə və coşqu ilə qeyd edir. Bu gün ərazi bütövlüyünü bərpa etmiş, azad Qarabağda üçrəngli bayrağını ucaltmış, milli qurtuluşdan işğal altındakı torpaqlarımızın qurtuluşuna qədər şərəfli yol keçmiş müstəqil Azərbaycan dövləti daha qüdrətli, Azərbaycan vətəndaşı daha qürurludur.

Xalqımızın taleyini dəyişən, onu tərəqqiyə və rifaha istiqamətləndirən bu tarixi günün 30-cu ildönümündə Ulu Öndər Heydər Əliyevin xilaskarlıq missiyasını bir daha dərindən dərk edir, onu sonsuz sevgi və ehtiramla yad edirik. Xoşbəxt xalqıq ki, müstəqilliyimizin memarı, Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı, müdrik rəhbərin siyasi kursuna sədaqətin simvolu möhtərəm cənab Prezidentimiz, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz günbəgün daha da inkişaf edir. Müstəqil Azərbaycanın 1993-cü ilin 15 iyunundan başlayan Qurtuluş yolu azad Şuşaya doğru uzanan tarixi Zəfər yolu ilə davam edir.

**AZƏRTAC-ın materialları əsasında hazırlanıb.**

# Nazir Vilayət Eyvazov İsmayıllıda vətəndaş qəbulu və sıra baxışı keçirib







Azərbaycan Respublikasının Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iyunun 12-13-də İsmayıllı Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.

Nazir əvvəlcə İsmayıllı şəhərindəki Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Sonra Rayon Polis Şöbəsinin inzibati binasında Ağsu, İsmayıllı, Göyçay, Qobustan və Şamaxı rayonlarından qəbula gələn 161 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib.

Müraciətlərin əksəriyyəti yerindəcə həllini tapıb.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

Sıra baxışında ətraf rayonlarda yaşayan, polis orqanlarında xidmət etmək arzusunda olan gənclər iştirak ediblər. 27-si Vətən müharibəsi iştirakçısı olmaqla xidmətə qəbulun şərtlərinə uyğun gələn 101 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

**DİN-in Mətbuat xidməti**

2 - 2_Layout 1 13.06.2023 17:42 Page 1



# ŞƏHİDLƏRİN XATİRƏSİNƏ UCALDILAN ABİDƏNİN AÇILIŞI OLUB

Daxili İşlər Nazirliyinin Daxili Qoşunları ölkəmizin suverenliyinin müdafiəsi və ərazi bütövlüyünün bərpası uğrunda şərəfli döyüş yolu keçib. Vətən naminə həyatını fəda etmiş qəhrəman hərbi qulluqçularımız heç vaxt unudulmur, xatirələri ehtiramla anılır.

67987 saylı hərbi hissədə şəhidlər abidəsi yaradılıb. Ümumi sahəsi 240 kvadratmetr olan abidənin inşası zamanı milli memarlıq elementləri və hərbi ehtiram ənənələri nəzərə alınıb. Abidənin üzərində Ümummilli Lider Heydər Əliyevin şəhidlər haqqında, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqımızın qəhrəmanlığı barədə sözləri və Daxili Qoşunların emblemi öz əksini tapıb. Bununla yanaşı, abidəyə hərbi hissənin Birinci Qarabağ müharibəsində şəhid olmuş 262 nəfər şəxsi heyətinin adları, həmçinin 44 günlük Vətən müharibəsində şəhadətə ucalmış 10 nəfər hərbi qulluqçusunun adları və şəkilləri həkk olunub. Fərqli memarlıq quruluşu ilə seçilən abidənin sol tərəfindəki dəmir dirəkdə üçrəngli bayrağımız qaldırılıb, önündə isə əbədi məşəl alovlandırılıb. Burada yaşıllıq zolağı da salınıb.





İyunun 10-da hərbi hissədə şəhidlərin xatirəsinə ucaldılan abidənin açılış mərasimi keçirilib. Mərasimdə Daxili qoşunlar komandanının müavini-şəxsi heyət üzrə idarənin rəisi general-mayor İnqilab Muradov, Xətai Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Quliyev, Xətai Rayon Polis İdarəsinin rəisi polis polkovniki Vaqif Müslümov, ictimaiyyət nümayəndələri, şəhid ailələrinin üzvləri, qazilər və veteranlar iştirak ediblər. İştirakçılar tərəfindən Ümummilli Lider Heydər Əliyevin və şəhid hərbi qulluqçularımızın xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Dövlət Himni oxunub.

Hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Aftandil Budaqov mərasimdə çıxış edib. O, çıxışında Birinci Qarabağ müharibəsi və 44 günlük Vətən müharibəsi dövründə hərbi hissənin şəxsi heyətinin qarşıya qoyulmuş döyüş tapşırıqlarını mətinliklə yerinə yetirdiyini, ön cəbhədə misilsiz şücaət nümunələri göstərdiyini, torpaqlarımızın işğaldan azad olunmasına layiqli töhfə verdiyini vurğulayıb. Qeyd olunub ki, hərbi hissənin müharibədə iştirak etmiş bir çox hərbi qulluqçusu Ulu Öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladıqları müvafiq sərəncamlarla ali dövlət mükafatlarına layiq görülüb. Diqqətə çatdırılıb ki, zəngin döyüş təcrübəsinə malik hərbi hissənin şəxsi heyəti qəhrəmanlıq ənənələrinə sadiqdir və vətənpərvər ruhda tərbiyə olunur.

Polkovnik-leytenant A.Budaqov Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun və Daxili Qoşunların komandanlığının rəhbərliyi altında qoşunlarda şəhidlərin xatirəsinin əbədiləşdirilməsi üçün geniş işlər görüldüyünü bildirib. Açılışı olan bu abidə də şəhidlərin xatirəsinə ehtiramın növbəti təzahürüdür.

Komandirin tərbiyə işləri üzrə müavini abidə haqqında qonaqlara ətraflı məlumat verib.

Sonra abidənin önünə gül dəstələri qoyulub və xatirə şəkli çəkdirilib.

**Yalçın Abbasov**

# DÖYÜŞ SINAĞINDAN KEÇƏN VƏ XİDMƏTDƏ LAYİQLİ NƏTİCƏ GÖSTƏRƏN DƏSTƏ

Xüsusi təyinatlı dəstənin əsas vəzifələri istər silahlı cinayətkarların axtarılması, tutulması və zərərsizləşdirilməsi, istərsə də ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi zamanı qarşıya qoyulan tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsinə daim hazır olmaqdır. Bu isə hər bir xüsusi təyinatlıdan, ilk növbədə, yüksək döyüş hazırlığı, möhkəm hərbi intizam və "dəmir iradə" tələb edir. Bu mənada 17071 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin hərbi qulluqçuları xidmətdə sayıqlıq və əzmkarlıq nümayiş etdirirlər.



Dəstə komandiri kapitan Anar Mahmudov bildirdi ki, şəxsi heyətin



döyüş təlimi Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının müvafiq direktivinin və digər rəhbəredici sənədlərin tələblərinə əsasən təşkil edilir. Hərbi qulluqçuların mənəvi-psixoloji hazırlığı da diqqətdə saxlanılan əsas məqamlardandır.

"Yaradılmış bütün bu şəraitdən düzgün və səmərəli istifadə edərək keçirilən məşğələ və təlimlərin keyfiyyətinin artırılması məhz döyüş hazırlığının yüksəldilməsinə xidmət edir. Yüksək döyüş hazırlığına, eləcə də xidmətin nümunəvi təşkil olunub aparılmasına nail olmanın əsasında isə şəxsi heyətin nizam-intizamı və düzgün istiqamətə köklənmiş mənəvi-psixoloji durumu dayanır" – deyə fikirlərini bildirən dəstə komandirinin tərbiyə işləri üzrə müavini mayor Rasim Əliyev bu baxımdan bəzi məqamlara aydınlıq gətirdi: "Ümumilikdə götürdükdə, dəstə kiçik hərbi kollektivdir. Dəstənin qarşısına qoyulan tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsi isə hərbi qulluqçuların birgə fəaliyyətindən asılıdır. Şəxsi heyətin hərbi intizamının möhkəmləndirilməsi, hərbi kollektivdə dostluq və yoldaşlıq məfhumunun aşılanması, eləcə də mənəvi-psixoloji durumun düzgün məcraya yönləndirilməsi ümumi məqsədə çatmanın əsas meyarı olmaqla yanaşı, tərbiyə işinin vacib vəzifələrindəndir".





Daxili Qoşunların şəhid zabitinin oğlu, peşəkar zabit kimi özünü doğruldan kapitan A.Mahmudov 44 günlük Vətən müharibəsi zamanı dəstənin şəxsi heyətinin döyüş əməliyyatlarına cəlb olunduğunu dedi, 2020-ci ilin oktyabr ayında xüsusi təyinatlıların dayandıqları mövqelərdən irəliləyərək, Füzuli-Əhmədbəyli yolunun açılmasında böyük şücaət göstərdiklərini xüsusi olaraq nəzərimizə çatdırdı. Onlardan 2 nəfərinin qəhrəmancasına şəhid olduğunu, bir çoxunun yaralandığını və ümumilikdə 58 nəfərin Azərbaycan Respublikasının Prezidenti və Müdafiə naziri tərəfindən orden və medallarla təltif edildiyini qeyd etdi. Tabeliyində olan hərbi qulluqçuların bacarıq və qabiliyyətlərini bir komandir kimi müsbət qiymətləndirdi, şəxsi heyətin yüksək döyüş hazırlığı və hərbi intizam nümayiş etdirərək qarşıya qoyulan istənilən tapşırığı müvəffəqiyyətlə yerinə yetirməyə hazır olduğunu dedi: "Müharibədən sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin sərəncamı ilə "Zəfər" ordeninə layiq görüldüm. Qeyd etməyi özümə borc bilirəm ki, bu təkcə mənim zəhmətimə verilən qiymət deyil, şəxsi heyətin uğurlu xidməti-döyüş fəaliyyətinin bəhrəsidir. Mən komandir kimi xüsusi təyinatlıların hər birinə fədakar xidmətində uğurlar arzulayıram. Xidmətdə fərqlənən hərbi qulluqçulardan gizir Xəzər Tahirov, baş çavuşlar Elsevər Əzizov, Əhməd Qəniyev, Səlahəddin Baxışlı və çavuş Sultan Quliyev verilən tapşırıqların icrası zamanı daha fəaldırlar".

**kapitan Nigar Ağayeva**

# "YÜKSƏK DÖYÜŞ HAZIRLIĞI, MÖHKƏM HƏRBİ İNTİZAM BAŞLICA HƏDƏFİMİZDİR"

16077 saylı hərbi hissənin yüksək döyüş hazırlığı və nümunəvi xidmətilə fərqlənən bölmələrindən biri də polkovnik-leytenant Varis Nəcəfovun komandiri olduğu xüsusi vasitələrin tətbiqi dəstəsidir.

Tabeliyində olan bölmələrin ümumi fəaliyyəti və qarşıya qoyulan vəzifələr barədə danışarkən dəstə komandiri bildirdi ki, təhkim olunmuş rayonlarda kütləvi iğtişaşların qarşısının alınması xüsusi vasitələrin tətbiqi dəstəsinin əsas vəzifəsidir. O əlavə etdi ki, şəxsi heyətlə keçirilən bütün təlimlər, məşğələlər yalnız bir məqsədə - hərbi qulluqçuların verilmiş tapşırıqların icrasına hər zaman hazır olmasına xidmət edir: "Şəxsi heyətin öz vəzifələrini yüksək səviyyədə və nümunəvi yerinə yetirə bilməsi üçün hərbi hissəmizdə hər bir şərait yaradılıb. Göstərilən diqqət və qayğıya cavab olaraq, bizim də üzərimizə təbii ki, böyük məsuliyyət düşür. Dəstə hər zaman döyüş hazırlığını yüksək səviyyədə qoruyub saxlamaqla, tapşırılmış vəzifələri yerinə yetirməyə daim hazır olmalıdır".





O, dəstədə yüksək döyüş hazırlığının, nizam-intizamın əldə olunmasının vacibliyini qeyd edərək, praktiki və nəzəri məşğələlərdə mövzuların keyfiyyətlə keçirilməsinin və hər bir hərbi qulluqçu tərəfindən dərindən mənimsənilməsinin qabaqcıl təcrübənin əldə olunmasına təkan verdiyini söylədi. Əlavə etdi ki, gündəlik olaraq şəxsi heyətin tam tərkibdə olması yoxlanılaraq, tərtib olunmuş cədvələ əsasən, məşğələlərin vaxtında keçirilməsi, hərbi qulluqçuların məşğələyə uyğun ekipirovkası və silahlanması təmin olunur. Eyni zamanda, dəstənin şəxsi heyəti işğaldan azad olunmuş Qubadlı, Zəngilan, Cəbrayıl rayonlarında polislə birlikdə yarımsutkalıq stasionar xidmətə cəlb olunur.

Ümumiyyətlə, xüsusi əməliyyatlara cəlb olunan bölmələrin yüksək döyüş hazırlığına malik olmasında möhkəm hərbi intizamın və kollektivdə qarşılıqlı sağlam münasibətlərin mühüm rol oynadığını nəzərimizə çatdıran polkovnik-leytenant V.Nəcəfov bu işdə dəstə komandirinin tərbiyə işləri üzrə müavini kapitan Mahir Hacıyevin də əməyini yüksək qiymətləndirdi. O, dəstənin istənilən çətinliyin öhdəsindən gəlməyə hazır olduğunu bildirdi.

Dəstə komandiri Daxili Qoşunlar komandanlığının müvafiq tapşırıqlarına uyğun olaraq, qrup və yarımqrup komandirlərinin hazırlıqlarına da xüsusi diqqət yetirdiklərini vurğuladı, şəxsi heyətin bilik səviyyəsinin artırılmasının, eləcə də peşə vərdişlərinin təkmilləşdirilməsinin xüsusi əhəmiyyət kəsb etdiyini dedi.

Polkovnik-leytenant V.Nəcəfov təlim və məşğələlərdə nümunəvi xidmətilə fərqlənən, öz vəzifələrinə məsuliyyətlə yanaşan hərbi qulluqçulardan kapitan Vaqif İsmayılov, kapitan Faiq Abdullayev, baş çavuş Nicat Əlizadə, baş əsgərlər Tunar Səfərov və Tahir Nəsibovun adlarını çəkdi.

**kapitan Xədicə Hacızadə**

# İSTEHKAMÇILAR PEŞƏKAR HAZIRLIĞA MALİKDİRLƏR

Hərbi hissənin döyüş hazırlığının qorunub saxlanılmasında rolu olan bölmələrdən biri də xüsusi təyinatlı dəstənin istehkamçı yarımqrupudur. 25033 saylı hərbi hissənin istehkamçıları da hər zaman qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsində peşəkarlıq nümayiş etdirirlər.

Xidmət müddətində bir çox tapşırığı uğurla yerinə yetirən xüsusi təyinatlı dəstənin istehkamçı yarımqrupunun komandiri-baş istehkamçısının vəzifələrini müvəqqəti icra edən çavuş Famil Məmmədov söylədi ki, yarımqrupun əsas vəzifələri təhkim olunmuş ərazidə sahibsiz qalmış şübhəli əşyaların zərərsizləşdirilməsi, partlamamış hərbi sursatların, minaların aşkar olunaraq təhlükəsiz hala gətirilməsi və ya partladılması, eləcə də dövlət əhəmiyyətli tədbirlərin keçirildiyi əraziyə daxil olan avtomobillərdə axtarış apararaq naməlum əşyaların, partlayıcı maddələrin aşkar edilməsidir.





Məlumat üçün bildirək ki, hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunan çavuş F.Məmmədov ötən müddət ərzində özünü nümunəvi hərbi qulluqçu, peşəkar istehkamçı kimi nümayiş etdirməyi bacarıb.

Çavuş F.Məmmədov yarımqrupun nümunəvi hərbi qulluqçularından çavuşlar Səid Sofiyev, Əyyub Allahverdiyev, Samid Qədimov və əsgər Fuad Süleymanzadənin adlarını qeyd edərək, onların verilən tapşırıqların icrasına hər zaman məsuliyyətlə yanaşdıqlarını bildirdi.

Hərbi hissənin mühəndis və kimya xidmətinin rəisi mayor Rasim Şixlinski istehkamçı yarımqrupunun fəaliyyətini müsbət qiymətləndirərək, vəzifə borclarının icrasına məsuliyyətlə yanaşan şəxsi heyətin bundan sonra da qarşıya qoyulan tapşırıqların vaxtında və keyfiyyətlə yerinə yetirilməsinə hazır olduğunu qeyd etdi.

**kapitan Şahin Cəfərzadə**

3 - 2_Layout 1 13.06.2023 10:35 Page 1



# “HEYDƏR ƏLİYEV İLİ” İLƏ ƏLAQƏDAR NÖVBƏTİ TƏDBİR KEÇİRİLİB

Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə may ayının 23-də 16077 saylı hərbi hissədə təntənəli mərasim keçirilib. Mərasimdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş, xidməti-vəzifə borclarının icrası zamanı həlak olmuş hərbi qulluqçularımızın xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Dövlət Himni səsləndirilib.





Tədbirdə Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Yevlax bölgəsi üzrə şöbə müdiri Natiq Əfəndiyev və şöbənin əməkdaşı Valeh Rəşidov iştirak ediblər. Hərbi hissənin şəxsi heyəti qarşısında çıxış edən qonaqlar Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyəti, xalqımıza, dövlətimizə verdiyi dəyərli töhfələr, eləcə də dahi liderin rəhbərliyi altında ordu quruculuğu sahəsində görülən genişmiqyaslı işlər barədə ətraflı məlumat veriblər.

Qeyd olunub ki, Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Dahi şəxsiyyətin ölkəmizə rəhbərlik etdiyi dövrdə qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində qısa müddət ərzində respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olunduğu da vurğulanıb.

Daha sonra “Heydər Əliyev və 44 günlük Zəfər yolu” sənədli filmi nümayiş etdirilib. Filmdə 2020-ci ilin sentyabr ayının 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsində Silahlı Qüvvələrimizin göstərdiyi qətiyyət, şücaət, cəsarət, vətənpərvərlik və Heydər Əliyevin bu qalib ordunun quruculuğunda göstərdiyi danılmaz fəaliyyət öz əksini tapıb.

**kapitan Xədicə Hacızadə**

# HƏRBİ QULLUQÇULARIMIZ BƏRDƏ ŞƏHƏRİNDƏ YAŞAYAN ŞƏHİD AİLƏSİNƏ BAŞ ÇƏKİBLƏR

May ayının 24-də 16077 saylı hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Elxan Babayevin rəhbərliyi ilə bir qrup hərbi qulluqçu şəhid xüsusi təyinatlı çavuş Ceyhun Rzayevin ailəsinə baş çəkib. Görüşdən öncə hərbi qulluqçular Bərdə rayonunun Şəhidlər xiyabanında şəhidin məzarını ziyarət ediblər. Şəhadətə ucalmış xüsusi təyinatlının xatirəsi anılaraq məzarına gül dəstələri qoyulub, ruhuna dualar oxunub.

Qeyd edək ki, çavuş Ceyhun Rzayev 1994-cü il sentyabrın 16-da Bərdə şəhərində anadan olub. İsmayıl Rzayevin və Mehparə Rzayevanın vətənpərvər ruhda böyüdüb tərbiyə etdikləri Ceyhunun özündən yaşca kiçik Leyla adlı bacısı var.

Şəhidin valideynləri məlumat veriblər ki, Ceyhun orta təhsilini Bərdə şəhərindəki şəhid Fəxrəddin Muradovun adını daşıyan 7 saylı tam orta məktəbdə alıb. 2012-ci ilin oktyabr ayından 2014-cü ilin aprel ayınadək Daxili Qoşunların 67987 saylı hərbi hissəsinin xüsusi təyinatlı dəstəsində müddətli həqiqi hərbi xidmət keçib. Sonra həmin hərbi hissənin xüsusi vasitələrin tətbiqi və xüsusi təyinatlı dəstələrində müddətdən artıq həqiqi hərbi xidmətdə olub. 44 günlük Vətən müharibəsində ilk gündən iştirak edərək erməni işğalçılarına qarşı Füzuli, Cəbrayıl, Xocavənd və Şuşa uğrunda gedən döyüş əməliyyatlarında fəal iştirak edib. O, silahdaşları ilə birgə bir sıra yaşayış məntəqələrimizin, eləcə də mühüm əhəmiyyət kəsb edən yüksəkliklərin işğalçılardan azad edilməsilə nəticələnən döyüş əməliyyatlarında ermənilərin xeyli sayda canlı qüvvəsini və hərbi texnikasını məhv edib, əsl şücaət göstərib.



6 noyabr 2020-ci il tarixdə Şuşa uğrunda gedən şiddətli döyüş isə Ceyhunun son döyüşü olub. O, Azərbaycan Respublikası Prezidentinin 15, 24 və 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları, həmçinin Azərbaycan Respublikası Müdafiə nazirinin 3 noyabr 2020-ci il tarixli əmri ilə ölümündən sonra “Vətən uğrunda”, “Cəbrayılın azad olunmasına görə”, “Şuşanın azad olunmasına görə” və “Şücaətə görə” medalları ilə təltif edilib.

Söhbət zamanı Ceyhunun valideynləri onun ömür yolu barədə xatirələrini bölüşüblər. Şəhidin hələ yeniyetmə yaşlarından polis və hərbçi peşələrinə böyük maraq göstərdiyini vurğulayıblar. Bununla yanaşı, o, fiziki hazırlığına da xüsusi diqqət yetirib. İ.Rzayev qeyd edib ki, Ceyhun təhsil aldığı dövrdə idmanın güləş növü ilə məşğul olub, iştirak etdiyi zona birinciliyi üzrə yarışlarda müxtəlif dərəcəli diplom və medallarla mükafatlandırılıb. Məktəbin müəllim-şagird kollektivi, qohum-əqrəba, həmçinin yaşadığı məhəllə sakinləri arasında tərbiyəli, böyük-kiçik yeri bilən və hər kəslə mehriban davranan gənc kimi tanınıb. Valideynləri, yaxınları Ceyhunun xüsusi təyinatlı kimi hərbi xidmətdə uğurları ilə hər zaman qürur duyublar.



Onlar şəhid hərbi qulluqçumuzun əsl vətənpərvər xüsusi təyinatlı olması, döyüşlər zamanı göstərdiyi şücaət, qəhrəmanlıqlar barədə döyüşçü yoldaşlarından məlumat alıblar. Torpaqlarımızın mənfur erməni işğalçılarının əsarətindən qurtulması ailənin yeganə təskinliyidir.

Məlumat üçün onu da bildirək ki, Ceyhunun məzunu olduğu şəhid F.Muradov adına 7 saylı tam orta məktəbdə Bərdə rayonunun şəhidlərinin xatirəsinə fotostend hazırlanıb, ailə üzvlərinin yaşadığı ünvanda şəhidin xatirəsinə abidə-bulaq kompleksi yaradılıb, evdə isə xatirə guşəsi düzəldilib. Hərbi qulluqçularımız Ceyhunun evdə yaradılmış xatirə guşəsi ilə də tanış olublar.

İgid xüsusi təyinatlının ailəsi göstərilən diqqət və qayğıya görə Daxili Qoşunların komandanlığına və şəxsi heyətinə minnətdarlığını ifadə edib.

**kapitan Xədicə Hacızadə**

*Qazilərimiz*

# VƏTƏN ANDI VƏ MÜBARİZ DÖYÜŞÇÜ MƏRAMI

Vətən torpağının düşmən tapdağından azad edilməsi naminə şəhid və qazi olmaq böyük şərəfdir. Bu şərəfli adları öz canları və qanları bahasına qazanmış igidlər xalqımızın say-seçmə oğullarıdır. Qədirbilən xalqımız şəhidlərin xatirəsinə ehtiram göstərir, qazilərə isə hörmətlə yanaşır.

Qazilər od-alovlu müharibənin canlı şahidləridir. Onların döyüş yolu xatirələri həm tarixi yaddaş, həm də gənc nəslin vətənpərvərlik tərbiyəsi baxımından olduqca qiymətlidir.

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının sabiq hərbi qulluqçusu, hazırda DİN-in Əlahiddə Çevik Polis Alayının 12-ci patrul bölüyünün polis nəfəri olan polis serjantı Sultanov Kənan Habil oğlu 44 günlük Vətən müharibəsinin iştirakçısıdır. O, 1993-cü il iyulun 18-də Sumqayıt şəhərində doğulub. Habil Sultanov və Gözəl Sultanovanın yaşca üçüncü və yeganə oğul övladıdır. Ata yurdu Xaçmaz rayonundakı Maqsudkənddir, anası isə əslən Zəngilan rayonunun Akara kəndindəndir (indiki Həkəri qəsəbəsi). Zəhmətkeş və mənəvi dəyərlərimizə bağlı olan ailədə böyüyərək boya-başa çatan Kənan Vətənini, millətini sevən, qeyrətli, ədəb-ərkanlı gənc olaraq yetişdirilib. Sumqayıt şəhərinin “Metallurq bağları” adlanan yaşayış massivində yerləşən, Qubadlı rayonunun Çardaxlı kəndinə aid tam orta məktəbdə 11 il təhsil alıb. Orta məktəbdə çalışqan şagird olub, müxtəlif fənlərdən müsbət qiymətləri ilə seçilib. Riyaziyyat fənninə daha çox maraq göstərib. Məzun olduqdan sonra ali məktəblərə qəbul imtahanında iştirak edib. Ancaq həm ailənin maddi durumu, həm də bəzi qəbul şərtləri səbəbindən Türkiyənin və ölkəmizin ayrı-ayrı universitetlərində təhsil alması mümkün olmayıb.

2011-ci ilin oktyabr ayında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Müdafiə Nazirliyinin “N” saylı hərbi hissəsində xidmət keçib. Goranboy rayonunun Yuxarı Ağcakənd yaşayış məntəqəsinin ətrafındakı ön mövqelərin müdafiəsində dayanıb. Düşmənlə təmas xəttində layiqli xidməti komandirlərinin nəzərindən qaçmayıb və o, bir neçə dəfə mükafatlandırılıb. 2013-cü ilin aprel ayında müddətli həqiqi hərbi xidmətdən tərxis olunub.

Hərbi xidmətdən qayıtdıqdan sonra Kənan bir müddət mülki işlərdə çalışıb. Ancaq belə həyat onun mənəvi prinsiplərinə



uyğun deyildi. Beləliklə, vətənpərvər əqidəli gənc olaraq öz həyatını hərbi xidmətə bağlamağı qərar verib. Bu qərarını valideynləri də dəstəkləyiblər.

2016-cı ilin dekabr ayının 24-də Daxili Qoşunların sıralarında müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. Müddətdən artıq həqiqi hərbi xidməti 25033 və 12318 saylı hərbi hissələrdə keçib. 25033 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin manevr qrupunun atıcısı, 12318 saylı hərbi hissənin isə xüsusi təyinatlı dəstəsinin atəş təminatı qrupunun AQS-17 qumbaraatan və dəzgahlı qumbaraatan yarımqruplarının heyət nəfəri vəzifələrinə təyin edilib. Təyin edildiyi vəzifələrdə funksional vəzifələrini vicdanla yerinə yetirib, komandanlığın etimadını doğruldub, silahdaşlarının hörmətini qazanıb. Xüsusi vasitələrin tətbiqi dəstəsi və xüsusi təyinatlı dəstənin tərkibində müxtəlif təlimlərdə fəal iştirak edərək peşə bacarıqlarını təkmilləşdirib. Hərbi xidməti dövründə təbii fəlakətlə bağlı fövqəladə hal zamanı vətəndaşlarımıza yardım göstərilməsinə, koronavirus pandemiyası ilə əlaqədar karantin rejiminin təmin edilməsinə, eləcə də silahlı cinayətkarın axtarışlarına və ictimai təhlükəsizliyin qorunması üzrə digər fəaliyyətlərə cəlb olunub. Qarşıya qoyulan tapşırıqların öhdəsindən bacarıqla gəlib.

2020-ci ilin sentyabr ayının 27-də erməni işğalçılarına qarşı Vətən müharibəsi başladıqdan bir neçə gün sonra xidmət etdiyi dəstənin hərbi qulluqçuları 16077 saylı hərbi hissədə yerləşdiriliblər. Hərbi hissədə ehtiyat qüvvə qismində saxlanılıblar. Bununla yanaşı, döyüş tapşırıqlarının yerinə yetirilməsinə hazırlıq görülüb. Oktyabr ayının ortalarında Cəbrayıl rayonunun ərazisinə göndəriliblər. Beləcə, silahdaşları ilə birlikdə bu istiqamətdən başlayaraq Şuşayadək döyüş yolu keçib. Qeyd edim ki, ön cəbhədə hərbi qulluqçularımızın üzərinə düşən əsas vəzifə Müdafiə Nazirliyinin tabeliyində olan xüsusi təyinatlı bölmələrin şəxsi heyəti ilə birgə torpaqlarımızın işğalına son qoyulması olub. Onlar ayrı-ayrı qrupların tərkibində müxtəlif istiqamətlərə göndərilərək çətin sınaqlarla üzləşiblər. Kənan Cəbrayıl rayonunun ərazisində ön mövqelərin müdafiəsi və xüsusi hərbi obyektlərin mühafizəsində dayanıb. Həmçinin Zəngilan rayonu istiqamətindən dağlıq zona ilə sızmağa cəhd göstərən erməni diversantlarına qarşı döyüş tapşırığını icra edib. Sonra Füzuli rayonunda müdafiə və mühafizə xarakterli tapşırıqlar onlara həvalə olunub. Oktyabrın 31-də Xocavənd rayonunun Hadrut qəsəbəsində bölmələr toplanılıb. Orada qarşıdakı döyüş tapşırıqları dəqiqləşdirilib, bölmələrin hərəkət istiqamətləri müəyyənləşdirilib və təchizatının yenilənməsi öz həllini tapıb. Sonrakı mərhələdə Xocavənd və Xocalı rayonlarının dağlıq-meşəlik əraziləri ilə keçərək, təbii maneələri aşaraq, düşmənin atəşinə məruz qalaraq Şuşa şəhərinin ətrafına doğru bir neçə gün irəliləyiblər. Çanaqçı kəndi istiqamətində işğalçıların bizim qüvvələrin irəliləyişini əngəlləmək cəhdləri heç bir nəticə verməyib. Noyabrın 4-də Laçın-Şuşa yolunun keçdiyi əraziyə çatıblar. Yolun üzərindəki əlverişli yüksəkliklərdən birində mövqeləniblər. Həmin yüksəkliyi düşmən üç tərəfdən şiddətli atəşə tutub. Bu atəş nöqtələrindən biri dəqiq koordinatla artilleriya zərbəsi nəticəsində susdurulub. Digər iki istiqamətdən işğalçılar geri çəkilməyə məcbur qalıblar. Döyüşçülərimiz irəliləyərək Şuşa şəhərinə daha da yaxınlaşıblar.



Şuşa-Xankəndi yolunun kənarındakı meşədə bacarıqla pusqu quraraq Şuşaya hərəkət edən düşmənin canlı qüvvəsini ciddi tələfata uğradıblar, həmçinin onun bir neçə zirehli və avtomobil texnikası sıradan çıxarılıb. Noyabrın 6-da Şuşanın qala divarları yaxınlığındakı ərazidə döyüş zamanı Kənan düşmən güllələrindən ağır yaralanıb. Döyüşçüyə ilk yardım göstərilib, o və digər yaralılar şəhər kənarındakı evlərdən birinə sığınıblar. Noyabrın 8-də Şuşa erməni işğalçılarından təmizlənib və şəhərdə üçrəngli bayrağımız qaldırılıb. Noyabrın 10-da döyüşlər dayandırıldıqdan sonra yaralıların şəhərdən təxliyyəsi mümkün olub. Kənan da döyüş zonasından çıxarılıb.

Vətən müharibəsi qazisi, Daxili Qoşunların Veteranlar şurasının üzvü, istefada olan gizir Şiraz Həsənov Kənanın yarımqrup komandiri olub. Şiraz mənim Kənan haqqında suallarımı cavablandıraraq bildirdi ki, o, ləyaqətlə xidmət edib, döyüş və mənəvi-psixoloji hazırlığında yoldaşlarına nümunə olub. Verilmiş tapşırıqları peşəkarlıqla yerinə yetirib, heç vaxt xüsusi təyinatlı adına xələl gətirməyib. Onun sözlərinə görə, Kənan ön cəbhədə əzmkar və mübariz döyüşçü kimi vuruşaraq hərbi anda sadiq qalıb. Şuşayadək keçdiyi şərəfli döyüş yolunda komandirləri və yoldaşları ona güvənib. Gərgin döyüş məqamlarında özünü itirməyib və qətiyyət nümayiş etdirib. Avtomat silahı ilə düşmənə qan uddurub. Döyüşlər zamanı silahdaşlarının şəhadətə ucalması və yaralanmasının sarsıntısını yaşayıb.

Kənan yaralı olarkən ona Füzuli rayonundakı hərbi qospitalda ixtisaslı tibbi yardım göstərilib. Daha sonra Daxili Qoşunların Hərbi Qospitalında müalicə olunub, üzərində cərrahiyyə əməliyyatı aparılıb. Xəstəlik tarixindən çıxarış-epikrizində sol dizaltı nahiyənin və sol baldırın yuxarı üçdə birinin kor güllə yaralanması diaqnozu öz əksini tapıb.

Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamı ilə Kənan Sultanov “Şuşanın azad olunmasına görə” medalı, həmçinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 aprel 2022-ci il tarixli müvafiq sərəncamına əsasən, “Vətən müharibəsi iştirakçısı” medalı ilə təltif edilib.

Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının 31 dekabr 2020-ci il tarixli əmri ilə K.Sultanova zoğalı beret daşıma hüququ verilib.

2021-ci ilin yanvar ayında xüsusi təyinatlı Daxili Qoşunların sıralarından ehtiyata buraxılıb. Həmin ilin mart ayından isə polis sıralarında xidmətini davam etdirir.

Qazinin qohumları arasında Birinci Qarabağ müharibəsinin iştirakçıları var. Ailəsi, qohum-əqrəbası, dostları, müəllimləri onunla qürur duyurlar. Müharibədən Kənanın sağ-salamat qayıtmasının sevincini yaşayan ailəsi 2021-ci ilin dekabrında faciəvi hadisə ilə üzləşib. Belə ki, Kənanın bacısı dəm qazından boğularaq vəfat edib. Silahdaşımız bu hadisədən dərindən sarsılıb. Bacısının ailəsinə qayğı göstərir.

Polis əməkdaşı kimi bu gün o, vətəndaşlarımızın asayişini etibarlı qorumaq üçün öz bilik və bacarığını əsirgəmir.

**Yalçın Abbasov**

4_Layout 1 13.06.2023 10:38 Page 1



# ÖZ SAHƏSİ ÜZRƏ TƏCRÜBƏLİ ZABİT



Döyüş hazırlığının daim yüksək səviyyədə qorunub saxlanılmasında bütün xidmət sahələrinin öz rolu var. Bu baxımdan avtomobil xidməti də istisna deyil. Şəxsi heyətin, habelə yüklərin təyin olunmuş ünvana vaxtlı-vaxtında çatdırılmasında xidmətin əməyi böyükdür. 25031 saylı hərbi hissənin avtomobil xidməti üzərinə düşən vəzifələri müvəffəqiyyətlə yerinə yetirir, burada xidmət rəisi mayor Vüsal Qəribovun əməyi danılmazdır.

Hərbi hissənin komandanlığı tərəfindən müsbət xarakterizə edilən maddi-texniki təminat xidmətlərində avtomobil xidmətinin rəisi mayor V.Qəribovun xidməti fəaliyyəti ilə yaxından tanış oldum. Hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Müşviq Xankişiyev onun öz sahəsi üzrə kifayət qədər bacarıqlı zabit olduğunu və sürücülərin peşə hazırlığının yüksəldilməsi istiqamətində əzmlə çalışdığını nəzərimizə çatdırdı.

Mayor V.Qəribov 1985-ci il fevralın 3-də Lənkəran şəhərində doğulub. 1992-ci ildən 2003-cü ilədək Elman Məmmədov adına 1 saylı Balıqçılar kənd orta məktəbində təhsil alıb. Orta məktəbi bitirdikdən sonra 2003-cü ilin aprel ayından 2004-cü ilin oktyabr ayınadək 67987 saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmət keçib. O, öz həyatını hərbi xidmətə bağlamağa qərar verib və 2004-cü ildə 67987 saylı hərbi hissədə maddi-texniki təminat xidmətlərində sürücülük üzrə təlimatçı vəzifəsinə təyin olunub. 2008-ci ildə Daxili Qoşunların Orta İxtisas Hərbi Məktəbini müvəffəqiyyətlə bitirib. Daxili Qoşunların hərbi hissələrində müxtəlif vəzifələrdə xidmət edib. 9 ildir ki, hazırkı vəzifədədir. Vətən müharibəsi iştirakçısıdır.

Vəzifələrinin icrasında daim təşəbbüskarlıq və sürücülərin təlimlərində düzgün metodika nümayiş etdirən xidmət rəisi nəqliyyat vasitələri təhkim olunmuş hərbi qulluqçuların nəzəri biliklərinin artırılması, praktiki fəaliyyətlərinin təkmilləşdirilməsi məqsədilə mütəmadi olaraq məşğələlərin keçirildiyini söylədi. Məşğələlərdə gündəlik texniki qulluğun keçirilməsi, avtomobillərin düzgün idarə olunması, şəxsi heyətin və yüklərin daşınması zamanı sürücünün vəzifələri, təhlükəsizlik qaydalarının tədris olunduğunu bildirdi.

**kapitan Şahin Cəfərzadə**

# BİŞİRİLƏN XÖRƏKLƏRİN KEYFİYYƏTİ TƏLƏBLƏRƏ TAM CAVAB VERİR



Yüksək döyüş hazırlığını qoruyub saxlayan 16077 saylı hərbi hissənin komandanlığının xüsusi diqqət yetirdiyi sahələrdən biri şəxsi heyətin keyfiyyətli, kalorili yeməklərlə qidalanmasıdır. Çünki hərbi qulluqçuların sağlamlığının qorunması və səhhətinin möhkəmləndirilməsi digər amillərlə yanaşı, sağlam və keyfiyyətli qidalanmadan asılıdır.

Ərzaq xidmətinin rəisi mayor Ceyhun Xəlilov şəxsi heyətin qidalanmasının Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Silahlı Qüvvələrdə ərzaq normalarının bölünməsi Qaydaları"na, Daxili işlər nazirinin müvafiq əmri ilə təsdiq edilmiş "Daxili Qoşunlarda ərzaq xidmətinin təşkili haqqında Əsasnamə"yə və digər rəhbəredici sənədlərin tələblərinə əsasən təşkil edildiyini söylədi. Onun sözlərinə görə, xörəklərin keyfiyyətlə hazırlanması Daxili Qoşunların və hərbi hissə komandanlığının qarşıya qoyduğu ən vacib tələblərdəndir. Bunun üçün hərbi hissədə bütün lazımi tədbirlər görülməkdədir.

Ərzaq xidmətinin rəisi şəxsi heyətin qidalanması və gündəlik qida rasionu barədə də məlumat verdi. Bildirdi ki, hərbi qulluqçuların qidalanmasında əsasən milli təamlara üstünlük verilir. Həftə ərzində hərbi qulluqçulara birinci xörək düyü şorbası, noxud əzməsi, mərci şorbası, küftə, bozbaş, borş, ikinci xörək olaraq isə makaron süzməsi, lobyalı və ya mərcili düyü plovu ət qovurması ilə, qarabaşaq, dolma, kotlet kimi yeməklər verilir. Şəxsi heyətin qidalanması həftəlik bölgü cədvəlinə əsasən aparılır. Bunun üçün yeməkxanada məsul vəzifəli şəxslər tərəfindən qidalanma rejimi və ərzağın bölüşdürülməsi işlənib hazırlanır.

Mayor C.Xəlilov görülən işlərdə yeməkxana rəisi baş çavuş Rəhman Ağamirzəyev və aşpaz-təlimatçı gizir Elvin Sadıqovun əməyini xüsusilə vurğuladı. Onların qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəldiklərini, qidaların tələb olunan keyfiyyətdə hazırlanması, gigiyena qaydalarına ciddi əməl olunması üçün öz əməklərini əsirgəmədiklərini diqqətə çatdırdı.

Əlavə olaraq, qidaların hazırlanmasında iştirak edən kurs keçmiş ixtisaslı əsgər aşpazlardan Ruhin Rəsulov, Mustafa Xalidov, Namiq Həsənov, Samir Mahmudov, işçi-aşpazlardan Qənirə Dadaşova, Leyla Haqverdiyeva, Validə Qasımova və Vəsilə Quliyevanın adlarını çəkərək, onların fəaliyyətini müsbət xarakterizə etdi.

**kapitan Xədicə Hacızadə**

# CAMAŞIRXANANIN FƏALİYYƏTİ QƏNAƏTBƏXŞDİR

Daxili Qoşunların hərbi hissələrində yaradılmış səliqə-sahmanın, göz oxşayan yaşıllıqların qorunub saxlanılması, şəxsi heyət arasında sanitar-gigiyenik vəziyyət və bu qaydalara ciddi riayət olunması hissə komandanlıqları qarşısında qoyulan əsas tələblərdən biridir. Sadaladığımız bu xüsusiyyətlər qoşunların 25033 saylı hərbi hissəsində də özünü büruzə verir.





Qarşıya qoyulmuş bu və digər tələblərin yerinə yetirilməsində, döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasında təkcə hərbi qulluqçuların deyil, mülki işçilərin də əməyindən geniş istifadə olunur. Əsgər yeməkxanasında xörəklərin hazırlanması, camaşırxanada şəxsi heyətin həftə ərzində istifadə etdiyi əmlakların yuyulması və digər işlər onlar tərəfindən həyata keçirilir. Bu baxımdan hərbi hissənin camaşırxanasında çalışan işçilərin fəaliyyəti təqdirəlayiqdir. Qeyd etmək lazımdır ki, camaşırxana bütün növ əmlakların yuyulması, qurudulması, o cümlədən çeşidlənməsi üçün lazım olan müasir texniki avadanlıqlarla təchiz olunub.

Funksional vəzifələrinin icrasına məsuliyyətlə yanaşan təminat bölüyünün təminat taqımında hamam-camaşırxana kombinatının rəisi kiçik çavuş Raqif Qəfərov 2022-ci ildən hərbi hissədə xidmət edir. O, tabeliyində olan işçi xanımların işgüzar və mənəvi keyfiyyətlərini sadaladı. Bildirdi ki, camaşırxana işçiləri Aygün Mehdiyeva, Mahnur Ağayeva, Nəzmiyyə Canıyeva və Səbuhə Rəhmanova artıq uzun zamandır ki, hərbi hissədə əsgərlərin qayğısına qalırlar.

Hərbi qulluqçulara xas nizam-intizama, bacarığa malik olan işçilər bundan sonra da üzərlərinə düşən vəzifələri, habelə verilmiş tapşırıqları müvafiq tələblər əsasında yerinə yetirmək üçün səylə çalışacaqlarını bildirdilər.

**kapitan Şahin Cəfərzadə**

*Həkim məsləhəti*

## KÖK XOLESTERİN SƏVİYYƏSİNİ TARAZLAŞDIRMAĞA KÖMƏK EDİR



Kök qiymətli qida maddələri - karotinoidlərin zəngin mənbəyidir. Kökün tərkibində olan karotinlərin təxminən 80 faizi bağırsağımızda A vitamininə çevrilən beta-karotin növünə aiddir. Karotinoidlər, həmçinin yaxşı fəaliyyət göstərən immun sisteminin dəstəklənməsinə köməklik edirlər, onlar dəri və sağlam yaşlanmaq üçün vacibdir, selikli qişaların yaxşı vəziyyətini qoruyub saxlayırlar.

Kök xolesterinin vəziyyətinə təsir edir. Kök lif, eləcə də C vitamini mənbəyidir, onlar damar və ürəyin vəziyyətinə müsbət təsir edir. Çiy kökün qəbul edilməsi qanda xolesterin balansını yaxşılaşdırmağa, artıq çəkidən azad olmağa kömək edir.

Çox vaxt kökün təbii şəkər və karbohidratlar mənbəyi kimi rasiondan xaric edilməsi məsləhət görülür. Lakin çiy kök azkalorilidir, tərkibində lif, su var, konfetə yaxşı alternativ ola bilər, onun qəbul edilməsi rasionda əlavə edilmiş şəkərin miqdarını azaltmağa kömək edir.

Kök xərçəngin inkişafı riskini də azaldır. Xüsusilə, bildirilir ki, mütəmadi olaraq yüksək dozada karotinoid qəbul edən qadınlarda süd vəzi xərçəngi riski əhəmiyyətli dərəcədə azala bilər.

Kök, həmçinin bağırsağın sağlamlığını dəstəkləyir. Bu tərəvəz faydalı bağırsaq bakteriyaları üçün "yanacaq" rolunu oynayır.

**AZƏRTAC**

*İdman*

# YIĞMA KOMANDAMIZ CÜDO YARIŞININ İKİNCİSİ OLDU



Mayın 25-dən 26-na kimi Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətinin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş daxili işlər orqan və hissələri arasında cüdo üzrə yarış keçirilib.

Daxili İşlər Nazirliyinin birinciliyi uğrunda keçirilmiş yarışda Daxili Qoşunların yığma komandası 8 idmançı və 1 nümayəndə ilə təmsil olunub.

Yarışda şəxsi birincilikdə 16076 saylı hərbi hissənin müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər İlkin Yusifov 90 kq çəki dərəcəsində 1-ci yerə, daxili qoşunların idman komandasında baş məşqçi-baş müəllim mayor Emil Hüseynov 100 kq, 16073 saylı hərbi hissənin müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Hüseyn Heydərov 81 kq, Ali Hərbi Məktəbin kursantları İbad Allahquluzadə 73 kq, Murad Əhmədli 66 kq çəki dərəcələrində 2-ci yerə, 99713 saylı hərbi hissənin müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Amir Muradxanov +100 kq, Ali Hərbi Məktəbin müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Neymar Xəlilov 66 kq çəki dərəcələrində 3-cü yerə layiq görülüblər.

Məlumat üçün bildirək ki, 13 komanda arasında birincilik uğrunda mübarizəyə qatılan Daxili Qoşunların yığma komandası II yerdə qərarlaşıb. Komandalar müvafiq dərəcəli kubok və diplomlarla mükafatlandırılıblar.

**kapitan Nigar Ağayeva**

*NÜMUNƏVİ XİDMƏT*

# KOMENDANT TAQIMININ SAYIQ, İNTİZAMLI ƏSGƏRİ



25033 saylı hərbi hissənin ayrı yerləşən patrul taborunun intizamı, layiqli xidmətilə seçilən müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından olan əsgər Yəhya Kərimov komendant taqımında xidmət edir. Taqım komandiri leytenant Xalid Xammədli tərəfindən müsbət xarakterizə olunan əsgərimiz qısa zamanda digər hərbi qulluqçulara nümunə olmağı bacarıb.

Əsgər Y.Kərimov 2000-ci il dekabrın 2-də Bakı şəhərində anadan olub. 2007-2018-ci illərdə paytaxtın Xətai rayonunda yerləşən 59 nömrəli orta məktəbdə təhsil alıb. 2018-ci ildə Bakı Dövlət Universitetinin beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinə qəbul olunub. Ali təhsilini başa vurduqdan sonra 2022-ci ilin iyul ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Xətai Rayon Şöbəsi tərəfindən müddətli həqiqi hərbi xidmətə çağırılıb. Ayrı yerləşən patrul taborunun komendant taqımında atıcı vəzifəsindədir. O, daim öz üzərində çalışır, özünə qarşı tələbkardır. Verilən tapşırıqların icrasında sayıqlıq göstərir, onları keyfiyyətlə yerinə yetirir.

Hərbi qulluqçumuza bundan sonrakı xidmətində uğurlar arzulayırıq.

**25033 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

# HƏRBİ XƏBƏRLƏR

-YENİLİKLƏR-

## "Yörük" Türkiyə Prezident Aparatını Qoruma Departamentinin inventarına daxil olub



"Nurol Makina" tərəfindən istehsal edilən "Yörük" taktiki təkərli zirehli vasitə Türkiyədə əhəmiyyətli bir uğura imza atıb. Ordu.az xəbər verir ki, Türkiyə Təhlükəsizlik Ümumi Müdirliyinin Prezident Aparatını Qoruma Departamentinin inventarına daxil olan "Yörük" aşağı çəkisi və yüksək qoruma xüsusiyyətlərinə görə təhlükəsizlik qüvvələrini əməliyyat üstünlüyü ilə təmin edəcək.

## Polşa AW149 helikopterləri üçün ABŞ-dan "Hellfire" raketləri alır



Polşanın Silahlanma Agentliyi və ABŞ Ordusunun Təhlükəsizliyə Yardım Komandanlığı (USASAC) arasında "Hellfire" tank əleyhinə raketlərin satın alınmasına dair 150 milyon dollar dəyərində müqavilə imzalanıb. "Poliqon" xəbər verir ki, bu barədə Polşanın Silahlanma Agentliyi məlumat yayıb.

Alınacaq "Hellfire" tank əleyhinə raketlər Polşa Quru Qoşunlarının AW149 çoxməqsədli helikopterlərinə quraşdırılacaq.

## Allah rəhmət eləsin

Daxili Qoşunların komandanlığı gizir Nurəddin Rzalıya **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000